# *Ceyhun BAYRAMOV:* "Azərbaycan BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verir"

Sentyabrın 17-də xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İnkişaf Proqramının Azərbaycanda rezident nümayəndəsi Alessandro Frakassetti ilə ölkəmizdəki fəaliyyət müddətinin başa çatması münasibətilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov rezident nümayəndəsinin Azərbaycandakı uğurlu fəaliyyətini qeyd edərək, bu xüsusda Alessandro Frakassettiyə təşəkkürünü bildirib.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini söyləyən nazir Ceyhun Bayramov BMT-nin İnkişaf Proqramı ilə əlaqələrimizi xüsusilə vurğulayıb.

AlessandroFrakassettinin fəaliyyəti müddətində bir sıra sahələrdə, xüsusilə də dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə bağlı görülən işləri məmnunluqla qeyd edən nazir gələcəkdə bu əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının olduğunu bildirib.

Alessandro Frakassetti öz növbəsində fəaliyyəti müddətində ona göstərilən diqqətə görə təşəkkürünü bildirərək hökumət tərəfindən BMTİP-in mandatına verilən dəstəyi yüksək qiymətləndirib. 1992-ci ildən etibarən Azərbaycanda fəaliyyət göstərən BMTİP-in bu müddət ərzində bir sıra sahələrdə, o cümlədən həssas qrupların dəstəklənməsi, peşə təhsili, iqlim dəyişikliyi, yaşıl iqtisadiyyat, kəndlərin inkişafı, gənclərin işlə təmin olunması və sair proqramların uğurla həyata keçirildiyini qeyd edib. BMTİP-in, həmçinin münaqişə sonrası minadan təmizləmə fəaliyyətinə də dəstək verdiyi qeyd olunub.

BMTİP proqramının növbəti rezident nümayəndəsi ilə əməkdaşlığın yüksək səviyyədə davam edəcəyinə əminliyini bildirən nazir Ceyhun Bayramov A.Frakassettiyə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan.- 2021.- 18 sentyabr.- S.2.